# Səfəvi mistikası

**Toplum öz kollektiv şüurundakı qəliblərə uyğun gəlməyən heç bir obrazı, hadisəni mifləşdirə bilmir. Hətta güclü reklam və təbliğatla da buna nail olmaq mümkün deyil.**

susda çoxsaylı araşdırmalar aparan müasir sosioloqlar, kulturoloqlar israr edir ki, xalqın, toplumun mifqavrama prosesi hazır qəliblər vasitəsilə həyata keçirilir. Yəni, şüurda, altşüurda müəyyən obrazların, hadisələrin qəlibləri olan arxetiplər var ki, müasir simulyakrların içindən o miflərə uyğun gələni kollektiv şüur tərəfindən udulur, uyğun gəlməyəni isə kənara atılır. Toplum öz kollektiv şüurundakı qəliblərə uyğun gəlməyən heç bir obrazı, hadisəni mifləşdirə bilmir. Hətta güclü reklam və təbliğatla da buna nail olmaq mümkün deyil. Məhz bu baxımdan bir çox alimlər qeyd edir ki, dövlət ideologiyası hökumət tərəfindən təyin edilir, milli ideya isə miflərə söykəndiyinə görə aşağıda - toplumun içində yayılır.)

## İrrasional simulyakrlar

Bir detalı da xüsusi qeyd etməliyəm ki, 20-ci əsrin sonlarından, 21-ci əsrin əvvəllərindən başlayaraq, qəribə də görünsə, dünyada təbliğ olunan simulyakrlarda (saxta miflərdə) yenidən irrasionallaşma meylləri güclənib. Yəni əgər əvvəl mifik arxetiplərin yerini rasional, real görünən obrazlar (təkrar edirəm, Rokfellerlər, Rokkilər, Ceyms Bondlar əvəz edirdisə, indi simulyakrlar getdikcə daha da fantastikləşir, qeyri-adi, irrasional keyfiyyətlərlə yüklənir. Bu da bəşəriyyətin kollektiv təhtəlşüurundakı arxetiplərin mifik-irrasonal müstəviyə daha çox meylli olmasının göstəricisidir.

Bunu sübut etməkçün, müasir dünyanın ən böyük simulyakr bazarını - kino sahəsini əlində saxlayan və əsası olmayan saxta miflər istehsal eləməkdə yüksək nailiyyətlər əldə edən Hollivudla bağlı bəzi faktlara diqqət edək; 20-ci əsrin sonlarına qədər Hollivud filmləri içindən dünyada ən populyar olan və ən çox gəlir gətirən filmlər "Küləklə sovrulanlar", "Doktor Jivaqo", "Ben Qur", "Spartak", "Ceyms Bond", "Rokki" və sair bu tipli realist macəraçılıq filmləri idisə, 21-ci əsrdə bu siyahıda, əsasən "Avatar", "Betmen" , "Matritsa", "Dəmir adam", Transformerlər", " Qara Cəngavər", "Hörümçək adamın qayıdışı" və bu tipli fantastik superqəhrəmanlar barədə filmlər çoxluq təşkil edir. Eyni prosesi mədəniyyətin və incəsənətin başqa sahələrində də müşahidə eləmək mümkündü. Deməli Qərb toplumu, eləcə də bütün dünya artıq rasional real simulyakrlardan bezib, yenə də irrasional mifik-metafizik obrazlara üstünlük verir...

Bunu diqqətdə saxlamağımız vacibdir. Çünki dünyada metafizikaya qayıdışın ən bariz göstəricilərindən biri də budur.

## Mif xəzinəsi

Bəli, uzun düşüncələrdən sonra, gəlib bu fikrə çıxdıq ki, milli ideyanın inkişafı, xalq tərəfindən daha rahat həzm olunması, xalqı öz ətrafında daha sıx birləşdirməsi üçün ideyanın müəyyən komponentləri mütləq şəkildə toplumun təhtəlşüurundakı arxetiplərin, mifik obrazların qəliblərinə uyğunlaşdırılıb təqdim edilməlidir. Zahiri formanın isə əhəmiyyəti yoxdur. Köhnə üslubda da ola bilər, yeni üslubda da... (Misalçün, muğam ifaçısı qədim milli geyimdə olsa da, kostyum-qalstuk geyinsə də, mahiyyət az dəyişir. Çünki əsas məqsəd səmavi-metafizik mənşəyə malik olan qədim milli musiqimizin topluma çatdırılmasıdır. )

Məhz bu məqamda yenə də üzümüzü Səfəvi tarixinə və mədəniyyətinə, Qızılbaş mifinə tutmağımız məncə, yeganə çıxış yolumuzdur. Bu mənbə bizimçün sanki sakral miflərin xəzinəsidir. Burda müasir dövrümüzdə xalqımızın kollektiv təhtəlşürunu neqativ saxta simulyakrlardan təmizləyib, ora səmavi-ilahi mənşəyə malik olan həqiqi mifləri yerləşdirməkçün hər cür material var və bu materiallar bizimdir, yalnız bizimdir.

Əgər belə olmasaydı, əsasını 13-cü əsrdə Şeyx Səfiəddin İshaqdan götürən və səmavi-metafizik başlanğıca söykənən Səfəvi-Qızılbaş ideologiyası yüzilliklər boyu çoxmilyonluq xalqı öz ətrafında sıx birləşdirib Azərbaycan milli şüurunu, Azərbaycan dilini, milli mədəniyyətini-ədəbiyyatını formalaşdırmaq yolunda bu qədər böyük nailiyyətlər əldə edə bilməzdi və bu gün Azərbaycan xalqı adlandırdığımız 40 milyonluq xalqın aqibəti tamam başqa cür olardı... (Ümumiyyətlə, yüzilliklər əvvəl Qızılbaş ideologiyası və Səfəvi dövləti olmasaydı, bu gün Azərbaycan xalqı olacaqdımı, yoxsa qonşu və qohum xalqların içində yavaş-yavaş əriyib gedəcəkdimi? Zənnimcə, ağır sualdı və şəxsən mən bu suala cavab verməyə çətinlik çəkirəm.)

İndi isə müasir düşüncələrimizə müvəqqəti fasilə verib yenə də yeddi yüz il əvvələ - Şeyx Zahid Gilaninin təkyəsində qoyub gəldiyimiz gənc Səfiəddinin yanına qayıdaq...

Bəli, o Səfiəddin ki, 25 il sonra böyük övliya, təriqət şeyxi mərtəbəsinə yüksəlib, on minlərlə-yüz minlərlə həmvətənimizin mürşidinə -mənəvi liderinə çevriləndən sonra, ən məşhur və tanınmış imzası bütün mənbə və təzkirələrdə tam halda belə qeyd olunacaq - Sədr-ül-millət vəd-din Şeyx Səfiəddin İshaq Ərdəbili...

Diqqət edək, sadəcə, Sədr əd din - "dinin sədri" (mənəvi-ruhani başçısı) yox, *millətin* və *dinin* mənəvi-ruhani rəhbəri...

O dövrün övliyalarının, şeyxlərinin içində bu künyə demək olar ki, rast gəlinmir, əksər hallarda ləqəb Dinin Sədri ifadəsiylə məhdudlaşır. Burda isə "millət" sözünü hətta din kəlməsindən də əvvəldə görürük.

Məncə, Şeyx Səfiəddin İshaqın və ümumilikdə Səfəvi-Qızılbaş ideologiyasının açarı, kodu, şifrəsi məhz bu ifadə ilə başlayır: *Sədr-ül-millət vəd-din şeyx Səfiəddin İshaq Ərdəbili...*

Özü qədər adı da əzəmətlidir, deyilmi?